**Abbasov N.I.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.69.6-16**
**UDC: 343.9**

## Some issues of unification of the methodological base of forensic expertise

**Abstract:** In the article, some issues of the unification (standardization) of the methodological base of forensic expertise were reviewed, the role and importance of methodology in the improvement and development of forensic expertise was noted, concepts such as methodology, as well as standardization and unification, related to the theory of forensic expertise and forensic expertise were analyzed, their essence and content has been disclosed. The main principles of the formation of expert research methodology: legalism, complexity, systematic construction of methodology, scientific validity, credibility, transformation, thrift, standard, attributed to ethics, the essence of these principles has been analyzed. The set of main elements that make up the structure (the main stages of its implementation) of a typical forensic examination procedure methodology is mentioned. Programming of methods of solving typical issues of forensic expertise, as well as concepts, terms, acceleration of works on standardization of methods, methodologies, technical means, forensic expertise as a whole, as well as its separate types and types the necessity of creating a complex of computerized methodologies based on modern information technologies was shown.

**Keywords:** forensic examination; methodology; unification; standardization; knowledge.

## References

1. Aliyev I.A. Problems of expert prevention. Baku, Azerneshr Publ., 1991, 312 p. (in Azerbaijani).
2. Bacon F. Works in 2 volumes. Vol.1. Moscow, Mysl' Publ., 1971, 570 p. (in Russian).
3. Zamaraeva N.A. On the role of standardization in improving forensic activities in the Russian Federation // Theory and Practice of Forensic Science. M., 2015, No. 2 (38), pp. 28-32 (in Russian).
4. Kirsanov Z.I. Problems of the methodology of Soviet criminalistics. Collection of scientific papers. Forensic Methodology. M.: VNIISE Publ., 1986. (in Russian).
5. Koldin V.Ya. Actual problems of the methodology of criminalistics and forensic examination. Theory and practice of forensic examination. 2011. No. 1 (21), pp. 12-18 (in Russain).
6. Syrykh V.M. Logical foundations of the general theory of law: Elemental composition. In 2 volumes. Vol.1. Moscow, Yusticinform Publ., 2000, 528 p. (in Russian).
7. Ursul A.D. Philosophy and integrative social scientific processes. Moscow, Nauka Publ., 1981, 368 p. (in Russian).
8. Shakhtarina N.I. Questions of the development of the methodology of forensic examination, the role of generalization in this development//Actual problems of the theory and practice of foren-

♦ **Abbasov Nail Ibad oglu** - PhD. in Law, Head of the Department of Forensic Science Centre of the Ministry of Justice of the Republic of Azerbaijan. E-mail: n_abbasov_81@yahoo.com

sic examination: Collection of scientific works. Moscow, VNIISE Publ., 1989, pp. 71-90. (in Russian).

9. Shimanovich P.V. Possibilities of using 3-D modeling in the production of forensic examinations // Collection of works of the 70th scientific conference of students and graduate students of the Belarusian State University. May 15-18, 2013 Minsk: At 3 parts. Part 2. Minsk, 2013. pp. 456-459. (in Russian).

10. Yudin E.G. Methodology of science. Consistency. Activity. Moscow, Editorial Publ., 1997, 444 p. (in Russian).

11. Yudin E.G. System approach and principle of activity. Moscow, Nauka Publ., 1978, 391 p.

**Abbasov N.İ.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.69.6-16**
**UOT: 343.9**

## Məhkəmə ekspertizasının metodoloji bazasının unifisirləşdirilməsinin bəzi məsələləri

**Xülasə**: Məqalədə məhkəmə ekspertizasının metodoloji bazasının unifisirləşdirilməsinin (standartlaşdırılmasının) bəzi məsələləri nəzərdən keçirilmiş, məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi və inkişafında metodologiyanın rolu və əhəmiyyəti qeyd edilmiş, məhkəmə ekspertizası nəzəriyyəsinə və məhkəmə ekspertizası icraatına aidiyyətində metodologiya, həmçinin standartlaşdırma və unifisirləşdirmə kimi anlayışlar analiz edilmiş, onların mahiyyət və məzmunu açıqlanmışdır. Ekspert tədqiqatı metodikasınının formalaşdırılmasının əsas prinsiplərinə: qanunçuluq; komplekslik; metodikanın sistemli qurulması; elmi əsaslılıq; mötəbərlik; transformasiya olunma; qənaətçillik; standartlıq; etiklik aid edilmiş, bu prinsiplərin mahiyyəti təhlil edilmiş. Tipik məhkəmə ekspertizası icraatı metodikasınının strukturunu (reallaşdırılmasının əsas mərhələlərini) təşkil edən əsas elementlər məcmusu qeyd olunmuşdur. Məhkəmə ekspertizaların tipik məsələlərinin həlli metodikalarının proqramlaşdırılması, habelə bu sahədə anlayışların, terminlərin, metodların, metodikaların, texniki vasitələrin standartlaşdırılması üzrə işlərin sürətləndirilməsinin, bütövlükdə məhkəmə ekspertizası, habelə onun ayrı-ayrı növləri və cinsləri üzrə müasir informasiya texnologiyalarına əsaslanan kompüterləşdirilmiş metodikalar kompleksinin yaradılmasının zəruriliyi göstərilmişdir.

**Açar sözlər:** məhkəmə ekspertizası; metodologiya; unifisirləşdirmə; standartlaşdırma; bilik.

Qloballaşmanın, elmi-texniki tərəqqinin sürətləndiyi, cinayətkar fəaliyyətin sosial təhlükəliliyi yüksək olan yeni forma və növlərinin yarandığı müasir şəraitdə məhkəmə ekspertizası nəzəriyyəsi və təcrübəsinin aktual problemlərindən biri də məhkəmə ekspertizası fəaliyyətinin

[♦] **Abbasov Nail İbad oğlu** – hüquq üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin şöbə rəisi (Azərbaycan). E-mail: n_abbasov_81@yahoo.com

metodologiyasının unifisirləşdirilməsi, ekspertiza icraatının elmi-metodiki əsaslarının təkmilləşdirilməsi, cinayətkarlıqla mübarizə təcrübəsinin tələbatlarına tam şəkildə cavab verən müasir metodoloji bazanın yaradılmasıdır.

İstənilən elmi nəzəriyyə kimi məhkəmə ekspertizasının ümumi nəzəriyyəsi də elmi anlayışlarda, metodlar sistemində, terminologiyada birmənalı qavranılan dəqiq ifadə olunan metodologiyaya əsaslanmalıdır. Elmi idrakın metodologiyası problemi hazırda bütün aspektlərdə müasir elmin ümumi fonunda əsas problemlərindən birinə çevrilmişdir. Son 20-30 ildə nəşr olunmuş fəlsəfi-elmşünaslıq üzrə işlərin mövzusunun və strukturunun hətta səthi analizi belə metodoloji yönümlü işlərin həcminin əhəmiyyətli dərəcədə artımını əyani şəkildə göstərir.

Metodoloji problemlərin öndə getməsini obyektiv şəraitlər və amillərlə (müasir elmdə inqilabi dəyişikliklər, mürəkkəb elmi problemlərin həllinin optimal yollarının axtarışı zəruriliyi və s.), həmçinin subyektiv hallarla (əvvəlki dövrlərdə metodoloji problemlərə lazımi diqqət yetirilməməsi) asanlıqla izah edilə bilər.

Metodologiyada hazırda təşəkkül tapmış vəziyyət, müasir elmin inkişafının real ehtiyacları, elmi-texniki tərəqqinin sürətlənməsi, ilk növbədə elmi idrakda və təcrübədə metodoloji nailiyyətlərin tam reallaşdırılması yollarının axtarışı istiqamətində məsələlər kompleksinin həlli zəruruliyini aktuallaşdırmışdır.

Elmi-texniki tərəqqi şəraitində müasir elmin metodoloji aparatının əhəmiyyətli dərəcədə dəyişməsi, köhnəlmiş metodoloji təsəvvürlərin kökündən ləğvi baş verir, elmi axtarışın istiqamət və strategiyası da dəyişir.

Müasir mərhələdə elmi idrakın metodologiyasının ən mühüm vəzifəsi yeni elmi biliyin əldə edilməsinin bütün “aparatının” hərtərəfli tədqiqindən, elmin inkişafının effektivliyinin artırılmasının metod və vasitələrinin öyrənilməsindən, elmi axtarışın intensivləşdirilməsindən ibarətdir.

F.Bekon elmin praktikanı qabaqlamalı, yeni axtarış və kəşflərin yolunu göstərməli olduğunu qeyd edərək yazırdı: “Bizə yolu müəyyən etmək üçün işıq lazımdır” [2, s. 67].

Məhz müasir şəraitlərdə bir çox elmi-praktiki problemlərin həlli yollarını və vasitələrini göstərən “işıq” rolunda elmi idrakın metodologiyası çıxış edir. Eyni zamanda, istənilən elmi nəzəriyyənin, o cümlədən məhkəmə ekspertizası ümumi nəzəriyyəsinin metodoloji məsələləri hazırda kifayət qədər dərin və hərtərəfli işlənib hazırlanmamışdır.

“Metodologiya” anlayışının dəqiq sərhədləri və birmənalı şərhi mövcud deyildir. Bu termindən istifadə edərək ayrı-ayrı müəlliflər ona müxtəlif, fərqli məna yükü qoyurlar.

A.D.Ursul yazır ki, “elmin metodologiyası haqqında danışarkən, elm olaraq təkcə biliklər sistemi deyil, həm də bu biliklərin istehsalı və tətbiqi üzrə fəaliyyəti başa düşürlər” [7, s. 246].

E.Q.Yudinin fikrincə, “Metodologiya idrak vasitələrinə istiqamətlənmə ilə fərqlənir. Biliklərin daxili mexanizminə, məntiqinə və təşkilinə istiqamətlənmə metodologiyanın fərqləndirici xüsusiyyətidir” [11, s. 35].

Ədəbiyyatda metodologiyanın təyinatı, həll etdiyi vəzifələr, məzmununa daxil olan elementlərin izahına istiqamətlənən xeyli sayda konsepsiyalar təklif olunmuşdur. Daha geniş yayılmış və ümumqəbul olunmuş anlayışlar isə metodologiyanın idrak metodları haqqında təlim və elmdə tətbiq olunan metodlar və üsullar məcmusu və ya rəhbəredici prinsip, elmi analiz aləti, bu analizin tələblərinin reallaşdırılması vasitəsi rolunu oynayan ideyalar, nəzəriyyələr sistemi kimi müəyyən edilməsi ilə bağlıdır.

Lakin bəzən metodologiyanı elmin ümumi nəzəriyyəsi ilə də eyniləşdirilməsi hallarına təsadüf edilir [4; 5].

Hesab edirik ki, nəzəriyyə və metodologiya fərqli kateqoriyalar və anlayışlardır. Belə ki, nəzəriyyə bilik əldə edilməsinə yönəldiyi halda, metodologiya biliyin əldə edilməsi prosesinə istiqamətlənmişdir.

Bir sıra kriminalistlər hesab edirlər ki, sahəvi hüquq elmlərinin öz metodogiyası ola bilməz. Onların fikrincə, konkret hüquq elmlərinin metodologiyası qismində yalnız fəlsəfə çıxış edə bilər.

Elmi biliyin ayrı-ayrı sahələrinin metodologiyasının mövcudluğuna qarşı çıxış edən mövqelərə etiraz edərək qeyd etmək istərdik ki, ümumi metodologiyanın olması ümumi metodologiyanın prinsiplərinə əsaslanan, lakin dar idrak sahəsinin spesifikasını və predmetini əks etdirən elmin konkret hissəsinin metodologiyasının mövcudluğunu istisna etmir.

Bir çox alimlər, metodologiyanı gerçəkliyin dərk olunması və çevrilməsi metodları haqqında təlim kimi başa düşərək onun çoxsəviyyəliliyini qeyd etmişlər.

Metodologiyanın ümumelmi səviyyəsi ümumelmi prinsiplər və yanaşmalardan, o cümlədən sistemli-struktur, informasiya, proqram- məqsədli və sair yanaşmalardan geniş istifadə əsasında formalaşdırılır.

İ.A.Əliyev məhkəmə ekspertizasının metodologiyasının mahiyyətini açaraq məhkəmə ekspertizası ümumi nəzəriyyəsinin metodoloji funksiyalarını öyrənmiş və bu funksiyaların təsnifatını vermişdir. Müəllifin fikrincə, məhkəmə ekspertizası ümumi nəzəriyyəsinin metodoloji funksiyalarından birincisi empirik ümumiləşdirmələrin və qanunların izahından ibarətdir. İkinci olduqca mühüm metodoloji funksiya yeni nəzəri anlayışların və prinsiplərin daxil edilməsi vasitəsilə məhkəmə ekspertizası elminin rolu və əhəmiyyətinin genişləndirilməsidir. Ümumi nəzəriyyənin üçüncü metodoloji funksiyası onun anlayış aparatından nəzəri biliyin sistemləşdirilməsi üçün istifadə edilməsindən ibarətdir. Ümumi nəzəriyyənin dördüncü metodoloji funksiyası bilavasitə elmi biliyin inkişafı ilə bağlı olmaqla elmin konseptual məzmununun və ya anlayış aparatının dəyişdirilməsi ilə bağlıdır [1, s. 47-48].

Metodoloji tərkib hissə – istənilən elmin təbii və ayrılmaz komponentidir. Elmə münasibətdə metodologiyanın atributiv xarakterinin, dialektik vahidliyinin və vəhdətinin sübuta ehtiyacı yoxdur.

Eyni zamanda ümummetodoloji tövsiyələri asan yadda qalan və mənimsənilən qaydalar məcmusuna keçirilməsi indiyə qədər həll edilməmiş vəzifələrdəndir.

Qeyd edək ki, metodologiyanın məqsədi təkcə konkret tədqiqatda real qanunauyğunluqların rekonstruksiyasından deyil, həm də bu tədqiqatı ən optimal şəkildə idarə etməyə imkan verən mexanizmlərin və prosedurların yaradılmasından ibarətdir.

Metodoloji biliklər məhkəmə ekspertizası sahəsində – elmi-nəzəri, informasiya-metodiki, elmi-təşkilati, elmi-metodiki, ekspert-profilaktik və s. kimi müxtəlif fəaliyyət növləri prosesində işlənib hazırlanır. Onlar da son nəticədə məhkəmə ekspertizası institutunun təkmilləşməsinə, elmşünaslıq sahələrindən biri kimi məhkəmə ekspertizasının təşəkkülü və inkişafına istiqamətlənmişdir. Bütün bu fəaliyyət növləri bir-biri ilə sıx bağlı olmaqla vahid sistemi və metodoloji kateqoriyaları - ictimai fəaliyyət növü kimi məhkəmə ekspertizası sahəsində fəaliyyəti təşkil edirlər.

Ona görə də məhkəmə ekspertizası ümumi nəzəriyyəsinin metodologiyasında mərkəzi yerlərdən birini məhkəmə ekspertizasının predmetinin idrakı konsepsiyası, elmi və praktiki problemlərin üzə çıxarılması, məhkəmə ekspertizasının təyini, aparılması və ekspert rəylərindən istifadə praktikasının dərin öyrənilməsi və ümumiləşdirilməsi vasitəsilə məhkəmə ekspertizasının inkişafı yollarının müəyyən edilməsi tutmalıdır [8, s. 77].

Metodoloji biliklər elmin və praktikanın normativləridir, onların inkişafı prinsiplərini müəyyən edirlər. Ona görə də bu prinsiplərin formalaşdırılması və məhkəmə ekspertizasının nəzəri, metodiki və təşkilati əsaslarının yaradılması zəruridir.

Məlum olduğu kimi məhkəmə ekspertizalarının ayrı-ayrı növləri və cinsləri bir-birindən əhəmiyyətli dərəcədə fərqlənirlər. Məsələn, xətşünaslıq ekspertizası və iqtisad ekspertizası, tikinti-texniki ekspertiza və bioloji ekspertiza, psixoloji ekspertiza və materialların, maddələrin və məmulatların kriminalistik ekspertizası və s. predmetinə və obyektlərinə görə fərqlənir. Uyğun olaraq bu ekspertizaların icraatı zamanı istifadə olunan metodlar və vasitələr arasında da əhəmiyyətli fərqlər vardır. Lakin bütün fərqlərə baxmayaraq, hesab edirik ki, məhkəmə-ekspert tədqiqatının ümumi metodologiyasından danışmaq mümkündür.

E.Q.Yudin elmin metodoloji problemlərini nəzərdən keçirərək metodoloji biliklərin aşağıdakı səviyyələrini fərqləndirmişdir: 1) fəlsəfi metodologiya; 2) tədqiqatın ümumelmi prinsipləri və formaları; 3) konkret-elmi metodologiya; 4) tədqiqatın metodikası və texnikası [10, s. 63-64].

Metodoloji biliklərin belə bir bölgüsü ilə tam şəkildə razılaşmaq olar.

Metodogiyanın ən yüksək səviyyəsi olmaqla, fəlsəfi metodologiyanın məzmununu bütövlükdə elmin ümumi idrak prinsipləri strukturu təşkil edir. Fəlsəfi səviyyə hər bir metodoloji biliyin məzmun əsası qismində çıxış edir.

Tədqiqatın ümumelmi prinsip və formaları metodologiyanın ikinci səviyyəsidir. Bura metodoloji funksiyalar yerinə yetirən ümumelmi konsepsiyalar, istərsə də kifayət qədər geniş metodoloji məsələlərin həlli ilə bağlı formal işləmələr və nəzəriyyələr daxildir.

Növbəti səviyyə – konkret-elmi metodologiyadır, yəni bu və ya digər xüsusi elm sahəsində tətbiq edilən metodların, tədqiqat üsullarının və prosedurların məcmusudur.

Metodologiyanın sonuncu səviyyəsi tədqiqatın metodikası və texnikasıdır, yəni mötəbər və birmənalı empirik materialların alınmasını və ilkin işlənməsini təmin edən prosedurlar, qaydalar məcmusudur. Məhz empirik məlumatlar alındıqdan və işlənildikdən sonra onlar mövcud elmi biliklər məcmusuna daxil edilə bilərlər.

İdrak prosesi kimi məhkəmə-ekspert tədqiqatının metodologiyasının mühüm tərkib hissəsini belə tədqiqatların metodları haqqında təlim təşkil edir [9, s. 459]. Bu zaman V.M.Sırıx düzgün olaraq qeyd edir ki, ilk baxışda metodologiya və metod arasında əhəmiyyətli fərqlərin olmadığı görünsə də, "metod" və "metodologiya" terminlərinin eyniləşdirilməsi üçün hər-hansı bir obyektiv əsaslar yoxdur [6, s. 361].

Məhkəmə ekspertizası fəaliyyətinin metodologiyasını, metodiki əsaslarını nəzərdən keçirərkən əsas bir məsələyə – standartlaşdırma məsələlərinə diqqət yetirmək də məqsədəmüvafiq hesab edilməlidir.

Bir sıra hallarda qiymətləndirmənin qeyri-konkretliyi, dəqiq olmaması, daxili ziddiyyətlilik və sair səbəblərdən metodikaları formalizə etmək mümkün olmur. Buna görə də metodikaların təftişi ilə yanaşı, ayrı-ayrı cins və növlər üzrə məhkəmə ekspertizalarının icraatında istifadəsi mümkün

olan unifisirləşdirilmiş (standartlaşdırılmış) metodikaların işlənib hazırlanması məhkəmə ekspertizası fəaliyyəti sahəsində qarşıda duran ən mühüm vəzifələrdən biri hesab edilməlidir.

Standartlaşdırma – elm, texnika və texnologiyanın inkişafı səviyyəsinə uyğun olaraq məhsulun, işlərin və xidmətlərin keyfiyyətinin yüksəldilməsi, ölçmələrin vahidliyinin təmini; bütün növ resursların qənaəti məqsədilə normaların, qaydaların və xarakteristikaların (tələblərin) müəyyən edilməsi üzrə fəaliyyətdir. Standartlaşdırma real mövcud olan və ya potensial vəzifələrə münasibətdə ümumi və dəfələrlə tətbiq üçün müddəaların müəyyən edilməsi vasitəsilə hər hansı bir sahədə optimal nizamlama dərəcəsinə nail olmağa istiqamətlənmişdir.

XX əsrin ikinci yarısından etibarən getdikcə sürətlənən elmi-texniki inqilab standartlaşmanın rolunu əhəmiyyətli dərəcədə yüksəltmişdir. Bunun səbəbi texniki tərəqqi templərinin sürətlənməsi, cihaz və avadanlıqların mürəkkəbləşməsi, yeni materialların tətbiqi, keyfiyyət və etibarlılığa irəli sürülən tələblərin yüksəlməsidir. Məhz bu dövrdə məhkəmə ekspertizası fəaliyyətinin standartlaşdırılmasının zəruriliyinin anlamı və ilkin şərtləri yaranmışdır. Belə ki, standartlaşdırma funksional və tətbiqi elmləri üzvü surətdə birləşdirərək onların məqsədyönlüyünün güclənməsinə və praktiki fəaliyyətə, o cümlədən ekspert təcrübəsinə elmi nailiyyətlərin tez bir zamanda tətbiqinə kömək edir.

Aydındır ki, yüksək keyfiyyətli məhkəmə ekspertizalarının aparılmasını təmin edən şəraitlərin yaradılması və ekspertiza icraatının effektivliyinin yüksəldilməsi üçün məhkəmə ekspertizalarının bütün "həyat dövrlərini" əhatə edən standartların (komplekslərin) rasional sistemi zəruridir. Lakin məhkəmə ekspertizası fəaliyyətinin standartlaşdırılmasının prioritet istiqamətləri qismində həmişə məhkəmə ekspertiza icraatı üzrə metodiki materialların standartlaşdırılması durur.

Standartlaşdırma – kifayət qədər mürəkkəb prosesdir və onun unifikasiya kimi elementini fərqləndirmək olar.

Unifikasiya – məhsulların, proseslərin və xidmətlərin, onların parametrlərinin qiymətlərinin və ölçülərinin optimal sayının seçimidir. Unifikasiya gedişində ilkin obyektlər məzmununun, məsələn, hər-hansı ekspert məsələsinin tədqiqi metodikalarının elementlərinin rasional daralması həyata keçirilir. Unifikasiya nəticəsində istənilən fəaliyyətə, o cümlədən məhkəmə ekspertizası sahəsində fəaliyyətə vahid optimal yanaşma təşəkkül edir.

Məhkəmə ekspertizası nəzəriyyəsində unifikasiya və standartlaşdırma çox zaman ekspert təcrübəsində vahid elmi-metodiki yanaşmanın müəyyən edilməsi prosesi kimi nəzərdən keçirilir. Lakin bu anlayışlar sinonim deyillər. Məhkəmə ekspertizası icraatı üzrə metodiki materialların standartlaşdırılması – onların unifikasiyasının yekun pilləsi, onun nəticələrinin hüquq norması səviyyəsinə çatdırılmasıdır. Standartların tələbləri adətən onun yayıldığı sahələr hüdudlarında tövsiyə xarakteri daşıyır.

Məhkəmə ekspertizası sisteminin inkişafının müasir mərhələsinin analizi onun standartlaşdırılmasının mümkünlüyü və zəruriliyini müəyyən edən ilkin şərtləri üzə çıxarmağa imkan verir.

Birincisi, bu gün məhkəmə ekspertizası fəaliyyətinin inkişafının ekstensiv formalarının hüdudları dəqiq cızılmışdır ki, bu da təbii olaraq məhkəmə ekspertizalarının icraatının effektivliyinin və keyfiyyət səviyyəsinin yüksəlməsi hesabına onun sonrakı tərəqqisi məsələsini qarşıya qoyur. İkincisi, məhkəmə ekspertizalarının çoxnövlüyü, məhkəmə ekspertizası icraatı üzrə

metodiki materialların çoxvariantlığı, ekspert-texnoloji proseslərin, müasir məhkəmə ekspert sistemində ekspert icraatının idarə olunması formalarının çoxsaylılığı, həll edilən ekspert vəzifələrinin bütün müxtəlifliyində bir sıra hallarda özünü doğrultmur və artıqdır [3, s. 29-30].

Son illərdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində ekspert metodikalarının unifisirləşdirilməsi istiqamətində xeyli işlər görülmüş, bir sıra ekspertiza növləri və cinsləri üzrə elmi əsaslı metodikalar yaradılmışdır. Onların sırasında aşağıdakıları xüsusi olaraq qeyd edə bilərik:

- xəttin uyğunlaşdırıcı xüsusi əlamətlərinin ehtimal-statistik qiymətləndirilməsinin təkmilləşdirilmiş metodikası və həmin metodikanın ekspert təcrübəsində avtomatlaşdırılmış tətbiqi üçün proqram təminatı;
- Azərbaycan dilində icra olunmuş kiçik həcmli əlyazmaların kriminalistik tədqiqi metodikası;
- yüksək və orta dərəcədə, yüksək vərdişli xətlə Azərbaycan dilində icra olunmuş mətnin icraçısının cinsinin kompüterlərin tətbiqi ilə əvvəlcədən verilmiş etibarlılıqla fərqləndirilməsi metodikası;
- ilkin məzmunları pozma, əlavə etmə və üstdən düzəldilməklə dəyişdirilmiş sənədlərin kriminalistik tədqiqatı metodikası;
- nəqliyyat vasitəsiilə piyadanın vurulması faktı üzrə məhkəmə avtotexniki ekspertiza məsələlərinin kompüterləşdirilmiş həlli metodikası;
- məhkəmə-xətşünaslıq ekspertizasında qrup mənsubiyyətinin müəyyən olunması məsələlərinin riyazi-kibernetik həlli metodikası;
- Azərbaycan dilində ortadan yüksək və yüksək yazı vərdişi ilə icra olunmuş əlyazmaların icraçısının müəyyən edilməsi metodikası;
- kompüter texnologiyalarından istifadə olunmaqla nəqliyyat vasitələrinin toqquşması ilə əlaqədar yol-nəqliyyat hadisələrinin ekspert tədqiqi metodikası;
- müasir texnologiya vasitəsilə hazırlanmış təsdiqedici çap formalarının (möhür və ştampların) əkslərinin ekspert tədqiqat metodikası;
- fonoqramın mötəbərliyinin pozulması izlərinin müəyyən edilməsi metodikası;
- nəqliyyat vasitəsinin icazə veriləndən artıq sürətdə hərəkətdə olması şəraitində yol-nəqliyyat hadisəsinin qarşısının alınmasının texniki imkanının kritik parametrlərə görə təyinin kompüterləşdirilmiş metodikası;
- qarşı-qarşıya toqquşmalarda nəqliyyat vasitələrinin tormozlanmış vəziyyətdə hərəkətdə olması şəraitində yol-nəqliyyat hadisəsinin qarşısının alınmasının texniki imkanının təyini metodikası;
- yol-nəqliyyat hadisələrinin ayrı-ayrı hallarının müəyyən edilməsi məqsədilə videoyazı materiallarının tədqiqi metodikası;
- fonoqramda kommunikativ aktın növü, danışıq materialının informativliyi (reprezentativliyi), danışıq dili, nitqin spontanlıq dərəcəsi, müqayisə olunan danışığın uyğunluğu, tamlığı və s. kimi xüsusiyyətlər nəzərə alınmaqla diktorun səsinə və nitqinə görə danışıq materialının auditiv, linqvistik və instrumental-akustik analiz metodlarının yararlılıq dərəcəsini müəyyən etmək üçün ekspert tədqiqatı metodikası;

Qeyd olunanlarla yanaşı, məhkəmə ekspertizasının metodoloji əsaslarının unifisirləşdirilməsi və standartlaşdırılması nəticə kimi məhkəmə ekspertizasının ayrı-ayrı növləri və cinsləri üzrə

icraatın məhkəmə-istintaq orqanlarının müasir tələblərinə uyğun olmasını təmin edəcək effektivlik səviyyəsinin yüksəldilməsi üçün bir sıra metodikaların da işlənib hazırlanması və ekspert təcrübəsinə tətbiqi tələb olunur. Onların sırasında aşağıdakıları xüsusi olaraq qeyd edə bilərik:

- psixi vəziyyətin vasitəli retrospektiv diaqnostikası metodikası;

- hüquq pozuntusunun təkrar törədilməsi riskinin müəyyən edilməsi metodikası;

- informasiyanın internet şəbəkəsində yerləşdirmə faktının təyini üzrə kompüter-texniki ekspertizalarının aparılmasının metodiki əsasları;

- şəbəkə qurğularının MAG – ünvanlarının müəyyən edilməsi metodikası;

- RE – faylın ilkin adının müəyyən edilməsi metodikası (faylın adı haqqında informasiyanı saxlayan sahələr, RE-faylın yaradılması şəraitləri haqqında və onların yaradıldığı kompüterin fayl sistemi haqqında əlavə informasiyanın alınması üsulları);

- montaj əlamətlərinin və digər dəyişikliklərin müəyyən edilməsi məqsədilə DV formatlı rəqəmsal videoyazıların tədqiqi metodikası (DV formatlı videofonoqramların tədqiqi üçün DUMP və AVİZO proqramlarının praktiki tətbiqi).

- qeyri-müəyyən parametrli foto və ya videokameralarla qeydə alınmış təsvirlər üzrə obyektlərin ölçülərinin və onlar arasındakı məsafənin müəyyən edilməsi metodikası;

- FAT16 və FAT32 fayl sistemli rəqəmsal daşıyıcılarda yazı prosesindən sonra video və səs yazılarda dəyişiklik əlamətlərinin müəyyən edilməsi metodikası;

- AVİ formatlı zədələnmiş videoyfaylların bərpası metodikası;

- “OTExpert” vasitəsilə videofonoqramın yenidən kodlaşdırılması əlamətlərinin axtarışı metodikası;

- audio və videofayllarda yazılışdan sonrakı dəyişikliklərin müəyyən edilməsi, yazı qurğusunun eyniləşdirilməsi məqsədiilə faylların struktur analizi (Binar analizi) metodikası;

- dindirmə prosesini əks etdirən videoyazısının psixoloji-linqvistik tədqiqi metodikası (ifadələrin mötəbərliyinin, dindirilmənin fərdi-psixoloji xüsusiyyətlərinin və emosional vəziyyətinin, dindirilənə psixoloji təsirin müəyyən edilməsi məqsədilə istintaq hərəkətlərinin videoyazısının tədqiqi ilə bağlı problemlər xeyli dərəcədə vahid elmi əsaslı metodiki yanaşmanın olmaması və hazırda tətbiq olunan yanaşmaların kifayət qədər işlənilməməsindən irəli gəlir. Məhz buna görə də səsin və səsləndirilən nitqin analizi, deyilənlərin (nitqin məzmunu və ifadə formaları) linqvistik tədqiqinə prinsipcə yeni olan elmi əsaslı psixoloji-linqvistik yanaşmanın işlənib hazırlanması tələb olunur);

- İnternet şəbəkəsi vasitəsilə radikal dini cərəyanlar tərəfindən reallaşdırılan manipulyativ təsir strategiyalarının tədqiqi metodikası (qeyri-ənənəvi dini təşkilatlar tərəfindən İnternet şəbəkəsi vasitəsilə reallaşdırılan manipulyativ psixoloji təsir strategiyaların ekspert tədqiqatı metodikasının işlənib hazırlanmasının aktuallığı qeyri-ənənəvi dini təşkilatların tərəfdarlarının cəlb olunmasının metodlarının və taktikalarının təkmilləşdirilməsi ilə şərtlənmişdir. Bu məqsədlə “manipulyativ psixoloji təsir strategiyası” anlayışının məzmunu, həmçinin onun reallaşdırılması mexanizmləri nəzərdən keçirilməli, öz internet resurslarından qeyri-ənənəvi dini təşkilatların təqdim etdiyi mətnlərin məzmun analizi aparılmalı; əldə edilmiş nəticələrin müqayisəli analizi həyata keçirilməlidir) və s.

Azərbaycanda yol-nəqliyyat hadisələrinin məhkəmə ekspertizasının inkişafının perspektiv istiqamətləri sırasında mühəndis-nəqliyyat-psixofizioloji ekspertizasının formalaşması, onun elmi-nəzəri və metodiki əsaslarının yaradılması hesab edilə bilər. Perspektivdə sürücünün şəraiti vaxtında qiymətləndirmək imkanının, yol şəraitindən asılı olaraq təhlükəni dərketmə vaxtının, yol şəraitini düzgün dərketmə və lazımi əməliyyatları yerinə yetirmək imkanının olub-olmamasının, müxtəlif vəziyyətlərdə yaranmış psixofizioloji təsirlər nəzərə alınmaqla hadisənin qarşısını ala bilmək imkanının həlli metodikasının işlənilməsi də mümkündür.

Ekspertizaların icraatı zamanı üçölçülü modelləşdirmə də yaxşı effekt verə bilər. Bu məsələdə Autodisk 3DS Max, Blender 2/61 Poser və s. kimi üçölçülü modelləşdirmə və animasiya paketləri kifayət qədər səmərəli hesab edilə bilər. Məsələn, Autodisk 3DS Max paketi situasion ekspertizalarda mümkün situasiyaların modelləşdirilməsi və obyektlərin konturlarının cızılmasında uğurla tətbiq edilə bilər. Bu proqram vasitəsilə insan bədəninin 3 ölçülü (fəzada) hərəkətinin realistik mənzərəsini generasiya etmək mümkündür. Yol nəqliyyat hadisələrinin ekspertizasında da üçölçülü qrafik miqyaslı modelləşdirmə kifayət qədər effektli hesab edilə bilər [9, s. 456-457].

Fikrimizcə, ən effektiv tədqiqat metodlarının, elmi texniki tərəqqinin bizə bəxş etdiyi ən müasir texniki vasitələrin və texnologiyaların ekspertlər tərəfindən mənimsənilməsi və ekspertiza icraatında səmərəli istifadəsi məqsədilə xarici ölkələrin uyğun strukturları arasında təcrübə mübadiləsi təşkil edilməli, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə fəaliyyət göstərən məhkəmə ekspertiza idarələrinin iş təcrübəsi öyrənilməli, ekspertiza icraatında istifadə olunan müasir metodların, metodikaların mahiyyəti, məzmunu, tətbiqi şərtləri və mərhələlərinin əks olunduğu metodik tövsiyələr və təlimatlar işlənib hazırlanmalıdır.

**Biblioqrafiya**

1. Əliyev İ.A. Ekspert profilaktikası problemləri. – Bakı: Azərnəşr, 1991. - 312 s.
2. Бэкон Ф. Сочинения в 2-х томах. Т.1. - М.: Мысль, 1971. - 570 с.
3. Замараева Н.А. О роли стандартизации в совершенствовании судебно-экспертной деятельности в Российской Федерации // Теория и практика судебной экспертизы. – 2015. - №2 (38). - С. 28-32.
4. Кирсанов З.И. Проблемы методологии советской криминалистики. Сборник научных трудов. Методология судебной экспертизы. - М.: ВНИИСЭ, 1986.
5. Колдин В.Я. Актуальные проблемы методологии криминалистики и судебной экспертизы // Теория и практика судебной экспертизы. 2011. - № 1 (21). - С. 12-18
6. Сырых В.М. Логические основания общей теории права: Элементный состав. В 2-х томах. Т.1. - М.: Юстицинформ, 2000. - 528 с.
7. Урсул А.Д. Философия и интегративно-общественные научные процессы. - М.: Наука, 1981. - 368 с.
8. Шахтарина Н.И. Вопросы развития методологии судебной экспертизы, роль обобщения в этом развитии//Актуальные проблемы теории и практики судебной экспертизы: Сбор. науч. труд., ВНИИСЭ. - М., 1989. - С.71-90.

9. Шиманович П.В. Возможности использование 3-Д моделирования при производстве судебных экспертиз / Сборник работ 70-й научной конференции студентов и аспирантов Беларусского государственного университета. 15-18 мая 2013 г. Минск: В 3 ч. Ч.2. Минск, 2013. с. 456-459.

10. Юдин Э.Г. Методология науки. Системность. Деятельность. - М.: Эдиториал, 1997. - 444 с.

11. Юдин Э.Г. Системный подход и принцип деятельности. - М.: Наука, 1978. - 391 с.

**Аббасов Н.И.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.69.6-16**
**УДК: 343.9**

## Некоторые вопросы унификации методологической базы судебной экспертизы

**Аннотация:** Рассматриваются некоторые вопросы унификации (стандартизации) методологической базы судебной экспертизы отмечены роль и значение методики в совершенствовании и развитии судебно-экспертной деятельности, проанализированы такие понятия, как методология, а также стандартизация и унификация применительно к теории судебной экспертизы и процедурам судебной экспертизы, разъясняются их сущность и содержание. Основные принципы формирования методологии экспертного исследования: законность; сложность; систематическое построение методологии; научная обоснованность; достоверность; трансформируется; бережливость; стандартизация; атрибутирована этика, проанализирована сущность этих принципов. Структура типовой методики производства судебной экспертизы (основные этапы ее проведения) совокупность основных элементов, из которых состоит. Программирование методов решения типовых вопросов судебной экспертизы, а также ускорение работы по стандартизации понятий, терминов, методов, методик, технических средств в этой сфере, судебной экспертизы в целом, а также показана необходимость создания комплекса компьютеризированных методик на основе современных информационных технологий для отдельных его видов и полов.

**Ключевые слова:** судебная экспертиза; методология; унификация; стандартизация; знания.

♦ **Аббасов Наиль Ибад оглы** - доктор философии права, начальник отдела Центра Судебной экспертизы Министерства юстиции Азербайджанской Республики. (Азербайджан). E-mail: n_abbasov_81@yahoo.com

**Библиография**


1. Алиев И.А. Проблемы экспертной профилактики. – Баку: Азернешр, 1991. - 312 с. (на азерб. яз.).
2. Бэкон Ф. Сочинения в 2-х томах. Т.1. - М.: Мысль, 1971. - 570 с.
3. Замараева Н.А. О роли стандартизации в совершенствовании судебно-экспертной деятельности в Российской Федерации // Теория и практика судебной экспертизы. – 2015. - №2 (38). - С. 28-32.
4. Кирсанов З.И. Проблемы методологии советской криминалистики. Сборник научных трудов. Методология судебной экспертизы. - М.: ВНИИСЭ, 1986.
5. Колдин В.Я. Актуальные проблемы методологии криминалистики и судебной экспертизы // Теория и практика судебной экспертизы. 2011. - № 1 (21). - С. 12-18
6. Сырых В.М. Логические основания общей теории права: Элементный состав. В 2-х томах. Т.1. - М.: Юстицинформ, 2000. - 528 с.
7. Урсул А.Д. Философия и интегративно-общественные научные процессы. - М.: Наука, 1981. - 368 с.
8. Шахтарина Н.И. Вопросы развития методологии судебной экспертизы, роль обобщения в этом развитии//Актуальные проблемы теории и практики судебной экспертизы: Сбор. науч. труд., ВНИИСЭ. - М., 1989. - С.71-90.
9. Шиманович П.В. Возможности использование 3-Д моделирования при производстве судебных экспертиз // Сборник работ 70-й научной конференции студентов и аспирантов Беларусского государственного университета. 15-18 мая 2013 г. Минск: В 3 ч. Ч.2. Минск, 2013. с. 456-459.
10. Юдин Э.Г. Методология науки. Системность. Деятельность. - М.: Эдиториал, 1997. - 444 с.
11. Юдин Э.Г. Системный подход и принцип деятельности. - М.: Наука, 1978. - 391 с.